შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

Dekabr, 2025

# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

I  Dinləmə hissəsi

Dinləmə hissəsi on tapşırığı birləşdirir.

Tapşırıqlar № 1-6.

Təlimat: İlk altı tapşırığın hər biri bir musiqi fraqmenti və iki sualdan ibarətdir. Hər suala dörd ehtimal olunan cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavabı seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Düzgün cavab bir balla qiymətləndirilir, müvafiq olaraq, hər bir tapşırıq - iki balla.

Tapşırığa aid olan musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləmə arasında 20 saniyə fasilə verilir. Fraqmenti dinləməzdən öncə, tapşırığın suallarını oxumaq üçün sizə 10 saniyə vaxt verilir.

*Tapşırıqlar növbəti səhifələrdə verilmişdir.*

(2) **Tapşırıq № 1.**

**Birinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**1.1 Gürcüstanın hansı guşəsinin mahnısıdır?**

ა) Sameqrelonun;

ბ) Quriyanın;

გ) Xevsuretinin;

დ) Kaxetiyanın.

**1.2 Mahnı çoxsəsliliyin hansı tipinə aiddir?**

ა) Burdon;

ბ) Kompleks;

გ) Kontrast;

დ) Ostinato.

(2) **Tapşırıq № 2.**

**İkinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**2.1 Musiqinin müəllifi kimdir?**

ა) Revaz Lağidze;

ბ) Qia Ğançeli;

გ) Bidzina Kvernadze;

დ) Otar Taktakişvili.

**2.2 Fraqmenti hansı opera səsi ifa edir?**

ა) Kontralto;

ბ) Soprano;

გ) Koloratur soprano;

დ) Mezzo soprano.

(2) **Tapşırıq № 3.**

**Üçüncü musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**3.1 Fraqmenti hansı tərkib ifa edir?**

ა) Simli-kamanlı alətlər orkestri;

ბ) Nəfəsli alətlər orkestri;

გ) Simfonik orkestr;

დ) Kamera-instrumental ansamblı.

**3.2 Əsərin bəstəkarı kimdir?**

ა) Qustav Maler;

ბ) Klod Debüssi;

გ) Sergey Raxmaninov;

დ) Rixard Ştraus.

(2) **Tapşırıq № 4.**

**Dördüncü musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**4.1 Fraqmenti hansı opera səsi ifa edir?**

ა) Kontratenor;

ბ) Bas;

გ) Tenor;

დ) Bariton.

**4.2 Əsər hansı dövrə/cərəyana aiddir?**

ა) Klassisizmə;

ბ) Barokkoya;

გ) İmpressionizmə;

დ) Romantizmə.

(2) **Tapşırıq № 5.**

**Beşinci musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**5.1 Əsər hansı janra aiddir?**

ა) Sonataya;

ბ) Konsertə;

გ) Uvertüraya;

დ) Simfoniyaya.

**5.2 Əsər hansı dövrə/cərəyana aiddir?**

ა) İmpressionizmə;

ბ) Barokkoya;

გ) Klassisizmə;

დ) Romantizmə.

(2) **Tapşırıq № 6.**

**Altıncı musiqi fraqmentini dinləməzdən öncə tapşırıqla tanış olun:**

**6.1 Fraqment hansı janra aiddir?**

ა) Rok operaya;

ბ) Operettaya;

გ) Müziklə;

დ) Opera buffaya.

**6.2 Musiqinin müəllifi kimdir?**

ა) Layonel Bart;

ბ) Leonard Bernstayn;

გ) Corc Qerşvin;

დ) Frederik Lou.

(1) Tapşırıq № 7.

<u>Təlimat</u>. Musiqi səslərinin sırasını dinləyin. Not yazısında verilmiş dörd lad variantından dinlədiyinizə uyğun olanı tapın və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Səslərin sırasını iki dəfə dinləyin. Dinləməzdən öncə, not yazısını nəzərdən keçirmək üçün sizə 5 saniyə vaxt verilir:

ა)



ბ)



გ)



დ)



(1) Tapşırıq № 8.

<u>Təlimat</u>. Musiqi frazasını dinləyin; not yazısında verilmiş dörd fərqli variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını  seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Musiqi frazasını iki dəfə dinləyin. Dinləməzdən öncə, not yazısını nəzərdən keçirmək üçün sizə 5 saniyə vaxt verilir:

ა)


ბ)


გ)


დ)


(5) Tapşırıq № 9.

*Melodiyalı imla.*

Təlimat. Melodiyanı dinləyin və not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Melodiyanı dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanın audioyazısını beş dəfə dinləyirsiniz. Dinləmələr arasında 2 dəqiqə fasilə var.

İmla - *Mi bemol major (Es dur)* tonallığında verilmişdir.

*Yazdığınız melodiyanı cavablar vərəqində verilmiş not sisteminə qələmlə köçürün.*

(13) Tapşırıq № 10.

*Musiqi əsərinin təhlili.*

Təlimat. Musiqi əsərinin fraqmentini audio və not yazıları əsasında təhlil edin. Fraqmenti üç dəfə dinləyin. Dinləmələr arasında 2 dəqiqə fasilə var. Yazını dinləməzdən əvvəl tapşırığın suallarını nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.

*Suallara növbəti iki səhifədə baxın.*

(2) **1. Fraqmentini dinlədiyiniz əsər hansı janra aiddir? Fikrinizi əsaslandırın.**

(3) **2. Təyin edin:**

**ა) Fraqmentin başlanğıc tonallığını;**

**ბ) 68-82-ci taktlarda verilmiş fraqmentin musiqi formasını;**

**გ) 81-82-ci taktlarda verilən kadans dövriyyəsinə daxil olan akkordların harmonik funksiyalarını.**

(3) **3. Verilmiş fraqmenti bədii-emosional nöqteyi-nəzərdən xarakterizə edin; onun musiqi-bədii məzmununu yaratmaq üçün musiqi təsvirinin hansı üsullarının (Dinlənilən fraqmentdə hansı növ melodiya, ritm, temp, registr, harmoniya, lad-tonallıq, faktura və s. istifadə edilmişdir) xüsusilə vacib olduğunu təhlil və təsvir edin.**

(2) **4. Dinlənilən əsərin fraqmentinin musiqi xüsusiyyətlərinə əsaslanaraq, onun aid olduğu bəstəkarı və dövrü müəyyənləşdirin.**

(3) **5. Bəstəkarın yaradıcılığını xarakterizə edin, musiqi sahəsinə hansı yeniliyi gətirdiyini qeyd edin. Dinlədiyiniz fraqmentin aid olduğu əsərin tarixi-mədəni kontekstini müzakirə edin.**

*Musiqi fraqmentinin not yazısına növbəti səhifələrdə baxın.*


Largo.
f
pesante
dim.
p
3
6
Moderato.
p dolce
Ped.
12


17
22
27
tr
Ped.
ritenuto


32
poco cresc.
6
6
6
35
a tempo
39
agitato


43
sempre più mosso
47
8
f
51
poco a poco meno f



55
8
59
8
63
smorz.
8
Meno mosso.
sotto voce
pp


69
75
81
sempre pp


85
89
sempre
dimin.
e rallent.
93
sotto voce
a tempo
pp


97
Ped.
Ped.
Ped.

## II Hissə

## Tapşırıqlar № 11-28.

Təlimat. Hər suala dörd ehtimal edilən cavab verilir. Onlardan yalnız biri düzgündür. Seçdiyiniz cavabı cavablar vərəqinə növbəti şəkildə köçürün: müvafiq xananı X ilə işarələyin. Başqa heç bir işarədən istifadə etməyin (üfüqi və ya şaquli xətlər, dairəyə almaq və s. ), çünki elektron proqram onları qəbul edə bilmir. Əgər cavablar vərəqində işarələdiyiniz cavabı düzəltmək istəyirsinizsə, X-lə işarələdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını işarələyin (X işarəsini yeni xanada qeyd edin). Düzəliş etdiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür. Hər düzgün tapşırığa 1 bal verilir.

(1) **Tapşırıq № 11.**

**Moris Ravelin "Bolero"-sunda, tam pyes boyunca, hansı musiqi alətinin partiyası səslənir?**

ა) Baraban;

ბ) Violino;

გ) Saksofon;

დ) Valtorna.

(1) **Tapşırıq № 12.**

**Hansı gürcü xalq mahnısı təqvim janrındandır?**

ა) „Miranqula“;

ბ) „Batonebo“;

გ) „Çari Rama“;

დ) „Alilo“.

(1) **Tapşırıq № 13.**

**Hansı xarakteristika Rixard Vaqnerin "Loenqrin" operasına *uyğun deyil?***

ა) Operanın bədii növləri, personajlar və hadisələr leytmotiv sistemlə əks olunur;

ბ) Əsərin orkestr girişi – forşpil operaya musiqi mövzusu ilə bağlıdır;

გ) Monoloqlar və dialoqlar üzərində qurulmuş opera dramaturgiyası xor səhnələrini istisna edir;

დ) Opera librettosunu Vaqnerin özü, Qraal cəngavərləri haqqında epos əsasında yaradıb.

(1) **Tapşırıq № 14.**

**Hansı musiqi janrı Barokko dövrünün musiqisinə *uyğun deyil?***

ა) Dördhissəli simfoniya;

ბ) Komik janrın operası;

გ) Bibliya mövzusunda oratoriya;

დ) Çoxhissəli konsert.

(1) **Tapşırıq № 15.**

**Bir neçə müstəqil pyesdən ibarət instrumental dövr necə adlanır?**

ა) Simfoniya;

ბ) Sonata;

გ) Konsert;

დ) Süita.

(1) **Tapşırıq № 16.**

**Astor Piatsollanın yaradıcılığı hansı rəqs janrına əsaslanır?**

ა) Vals;

ბ) Xabanera;

გ) Tanqo;

დ) Polonez.

(1) **Tapşırıq № 17.**

**Hansı musiqi janrları İntibah dövrünü xarakterizə edir?**

ა) Opera və kantata;

ბ) Messa və motet;

გ) Skertso və etüd;

დ) Balet və himn.

(1) **Tapşırıq № 18.**

**Hansı müəllifin bədii mətni Niko Sulxanişvilinin “Mestviruli” dəstəsinin əsasını təşkil edir?**

ა) Akaki Tseretelinin;

ბ) Qriqol Orbelianinin;

გ) İlya Çavçavadzenin;

დ) Nikoloz Barataşvilinin.

(1) **Tapşırıq № 19.**

**Hansı xüsusiyyət Volfqanq Amadey Motsartın "Fiqaronun toyu" operasını** ***xarakterizə etmir:***

ა) Uvertüra operanın ovqatını müəyyənləşdirir, lakin musiqi mövzuları ilə opera ilə əlaqədar deyil;

ბ) Operanın ilkin mənbəyi, Pyer Bomarşenin komediyası - fransız, libretto isə - italyan dilindədir;

გ) Opera nömrəli struktura deyil, fasiləsiz inkişaf prinsipinə əsaslanır;

დ) Əsər opera buffa janrına aid olsa da, digər janrın opera əlamətlərindən də ibarətdir.

(1) **Tapşırıq № 20.**

**Robert Şumanın "Karnaval" fortepiano süitasında hansı musiqiçinin "portreti" *yoxdur*?**

ა) İohan Bramsın;

ბ) Frederik Şopenin;

გ) Nikkolo Paqaninin;

დ) Robert Şumanın.

(1) **Tapşırıq № 21.**

**Hansı musiqi xüsusiyyətlərinin cütlüyü Romantizm dövrünə uyğundur?**

ა) Konçerto qrosso və dinamik kontrastlar;

ბ) Xor a capella-sı və monodik təfəkkür;

გ) Rəqs süitaları və polifonik quruluş;

დ) Miniatür formalar və proqram musiqisi.

(1) **Tapşırıq № 22.**

**Kamil Sen-Sans “Heyvanlar karnavalı” adlı instrumental əsərindən “Qu quşu” pyesində hansı musiqi alətlərindən istifadə etmişdir?**

ა) Solo kontrabas və fortepiano;

ბ) Solo violino və kamera orkestri;

გ) Solo fleyta və simfonik orkestr;

დ) Solo violonçel və fortepiano.

(1) **Tapşırıq № 23.**

**Cüzeppe Verdinin operasının hansı epizodu Ferens Listin "Riqoletto"-sunun parafrazının əsasını qoyub?**

ა) Riqoletto səhnəsi və Ariya İkinci Aktdan;

ბ) Maddalena, Sparafuçile və Cilda triosu;

გ) Hersoq, Maddalena, Riqoletto və Cildanın kvarteti;

დ) Cildanın reçitativi və Ariya Birinci Aktdan.

(1) **Tapşırıq № 24.**

**Klassik simfoniya dövrünün üçüncü hissəsi – menuet hansı forma ilə yazılır?**

ა) Üçhissəli forma ilə;

ბ) Rondo forması ilə;

გ) Sonata forması ilə;

დ) Variasiya forması ilə.

(1) **Tapşırıq № 25.**

**Orta Əsrlərdə Messa kilsə ayinlərinin mətnləri hansı dildə yazılırdı?**

ა) İtalyan;

ბ) Latın;

გ) Alman;

დ) Fransız.

(1) **Tapşırıq № 26.**

**Hansı termin musiqi səslənməsinin gücünün artırılmasını bildirir?**

ა) Diminuendo;

ბ) Agitato;

გ) Accelerando;

დ) Crescendo.

(1) **Tapşırıq № 27.**

**Hansı yaradıcılıq xüsusiyyəti Bela Bartokun musiqi üslubuna *uyğun deyil* ?**

ა) Akustik və elektron musiqinin ifadə üsullarını birləşdirmək;

ბ) Peşəkar musiqidə xalq musiqisi ritminə və intonasiyasına çatmaq;

გ) Tonal quruluşun pozulması və diatonik lad sisteminin istifadəsi;

დ) Şərq və Qərb musiqilərinin üslub xüsusiyyətlərinin sintezi.

(1) **Tapşırıq № 28.**

**Hansı operanın librettosu alman dilində *yazılmamışdır?***

ა) Rixard Vaqnerin "Valkiriya"-nın;

ბ) Volfqanq Amadey Motsartın "Sehrli fleyta"-nın;

გ) Qeorq Fridrix Handelin "Rinaldo"-nun;

დ) Karl Veberin "Sərbəst atıcı"-nın.

Tapşırıqlar № 29 - 32.

*Notdan qurma*

Təlimat. ***Mi*** **notundan** intervalı, akkordları və ladı qurun, cavablar vərəqində verilən not sistemində yazın.

(1) 29. Kiçildilmiş septima;

(1) 30. Major kvartsekstakkord;

(1) 31. Kiçik minor septakkord;

(1) 32. Harmonik minor.

Tapşırıqlar № 33 - 35.

*Uyğunluğun müəyyən edilməsi*

Təlimat. Tapşırıqda sadalananların iki sütunu verilmişdir. Onlar arasındakı uyğunluğu müəyyən edin. Sol sütunun hər bir göstəricisi (1, 2, 3) sağdakı sütununun *yalnız bir* göstəricisinə (ა, ბ, გ, დ, ე) uyğundur. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş hər bir uyğunluğu X işarəsi ilə qeyd edin. Hər düzgün cavab 1 balla qiymətləndirilir.

(3) **Tapşırıq № 33.**

**Fortepiano janrları və əsərlər arasındakı uyğunluğu müəyyən edin:**

1. Sonata
2. Etüd
3. Prelüdiya

ა) “Kampanella”

ბ) “Appassionata”

გ) “Ququ quşu”

დ) “Qarda addımlar”

ე) “Gecə Qasparı”

(3) **Tapşırıq № 34.**

**Opera qəhrəmanları və operalar arasındakı uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. Kalaf | ა) „Ariadna“ |
| 2. Mazetto | ბ) „Aida“ |
| 3. Eskamilyo | გ) „Turandot“ |
| | დ) „Karmen“ |
| | ე) „Don Covanni” |

(3) **Tapşırıq № 35.**

**Musiqi cərəyanları və bəstəkarlar arasında uyğunluğu təyin edin:**

1. Minimalizm
2. Barokko
3. Romantizm

ა) Frans Şubert

ბ) Arnold Şonberq

გ) İohan Sebastyan Bax

დ) Stiv Rayx

ე) Yozef Haydn

Tapşırıqlar № 36–40.

*"Düzgündür - səhvdir"*

Təlimat. Verilən müddəanın düzgün, yaxud səhv olduğunu müəyyən edin. Müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin; belə hallarda sizdən şərh tələb edilmir; Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin və ayrılmış sahədə düzgün izahı yazın.

Müddəa səhvdirsə, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın və yaxud verilmiş termini/sözü düzgün izah edin. Nəzərə alın ki, verilmiş izahın təsdiq halı inkar halı ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmayacaqdır. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 36.**

Presto - musiqi alətində səsin alınma üsullarından biridir.

(1) **Tapşırıq № 37.**

Pizzicato – musiqidə emosiya bildirən terminlərdən biridir.

(1) **Tapşırıq № 38.**

Quriya xalq mahnısı “Xasanbequra” kontrast çoxsəsliliyin nümunəsidir.

(1) **Tapşırıq № 39.**

Sprechgesang - musiqi alətinin müşayiəti xaricində oxuma deməkdir.

(1) **Tapşırıq № 40.**

Staccato – aqogika bildirən termindir.

Tapşırıqlar № 41 – 42.

*Xronologiyanın müəyyən edilməsi*

Təlimat. Verilənləri ən qədimdən ən yeniyə qədər xronoloji ardıcıllıqla düzün. Cavablar vərəqindəki cədvəldə xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-də qədər qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca verilən xanada əlifbanın müvafiq hərfləri ilə (ა, ბ, გ, დ) düzgün cavabları yazın. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 41.**

**Fransız bəstəkarlarının soyadlarını, onların fəaliyyət dövrlərinə əsasən, xronoloji ardıcıllıqla düzün:**

ა) Jorj Bize;

ბ) Klod Debüssi;

გ) Kleman Janeken;

დ) Olivye Messian.

(1) **Tapşırıq № 42.**

**Opera müğənnilərinin siyahısını, onların fəaliyyət dövrlərinə əsasən, xronoloji ardıcıllıqla düzün:**

ა) Luçano Pavarotti;

ბ) Mario del Monako;

გ) Enriko Karuzo;

დ) Xuan Dieqo Flores.